# GÖRKƏMLİ ALİMLƏ

Bir tələbə kimi, bir gənc kimi bizim hər zaman böyüklərin, savadlı, ağıllı insanların məsləhətlərinə ehtiyacımız var. Bu insanla görüşdükdən sonra, onun söhbətini dinlədikdən sonra mənim içimdə sanki həyat eşqi yenidən alovlandı. Uzun həyat yolu keçən bu insanın sözlərində, qəlbində olan həyatsevərlik, insanlara, təbiətə sonsuz sevgi bizi heyran etdi. İşlətdiyi bir cümlə – "Mən bir insanla kobud danışandan sonra bir ay sanki xəstə vəziyyətdə oluram" – bizi dərindən həyəcanlandırdı. Haqqında danışdığım gözəl insan – dekabrın 22-də universitetimizin "Tarix və coğrafiya" ixtisası üzrə təhsil alan birinci, ikinci və üçüncü kurs tələbələri ilə görüşü keçirilən tarix elmləri doktoru, Bakı Dövlət Universitetinin Arxeologiya və etnoqrafiya kafedrasının müdiri professor Qüdrət İsmayılzadədir.

Qüdrət müəllim1934-cü ildə Bakının Suraxanı kəndində neftçi ailəsində dünyaya göz açmışdır. Hələ uşaqlıqdan Bakıda və kəndlərində olan qədim mədəniyyət abidələri onu cəlb etmiş və beləliklə ürəyində tarixə sevgi yaranmışdır. Və bu sevgi ilə 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakultəsinə qəbul olunur. Özünün dediyi kimi, içində təbiətə böyük sevgi var idi, lakin böyüdüyü Suraxanı kəndi neft mədənlərinin içində yerləşdiyindən gözəl təbiətdən uzaq idi. Buna görə də, Qüdrət müəllim universiteti bitirdikdən sonra Azərbaycanın gözəl təbiətə malik Yardımlı rayonuna təyinat alır. Ucqar kəndlərdə yaşayan şagirdlərə bütün səy və bacarığı ilə Azərbaycanın tarixini, qədim mədəniyyətini öyrədərək, onların da qəlbində tarixə böyük sevgi yaradır.

Qüdrət müəllim Xəzər Universitetində nəşr olunan "Azərbaycan arxeologiyası" jurnalının baş redaktorudur. Beynəlxalq Arxeoloqlar Assosiasiyasının üzvü, Türkmənistan Prezidenti yanında Şərqin Mədəni İrsinin Öyrənilməsi üzrə Elmi Şuranın və Rusiya Arxeoloqlar Cəmiyyətinin Azərbaycan Bürosunun və «Miras» jurnalının Beynəlxalq redaksiya şurasının üzvüdür. O, Troya, Boğazköy və Altıntəpə kimi dünya əhəmiyyətli abidələrdə arxeoloji qazıntılarda iştirak etmişdir.

Çox maraqlı keçən görüşdə tələbələr Qüdrət müəllimin ilk öncə necə sadə insan olduğuna, tələbələrlə bir dost kimi, bir ata, baba kimi ünsiyyət qurmağına heyran oldular. Bu günə qədər ölkəmizdə və xaricdə apardığı arxeoloji qazıntılar haqqında, arxeoloji qazıntılarda başına gələn maraqlı hadisələr haqqında təəssüratlarını tələbələrlə bölüşən alim, həmçinin, tələbələrin verdiyi sualları da cavablandırdı.

Qüdrət müəllim bir sıra kitabların – "Abidələr, xatirələr, düşüncələr", "Quruçay və Kondələnçay vadisində qədim mədəniyyət izləri", "Azərbaycan Qafqazın erkən tunc mədəniyyəti sistemində", "Arxeoloqun çöl gündəliyindən" və s. kitabların müəllifidir. Görüşün sonunda alim tələbələrə müəllif imzası ilə kitablarını hədiyyə etdi.

# "DAHA YAXŞI DÜNYA ÜÇÜN -

*(Əvvəli səh. 12 - də)*

Proqram çərçivəsində dekabrın 21-də keçirilən "Dindən mədəniyyətə: Hinduizm" adlı üçüncü tədbirdə iştirakçılar dünyanın ən qədim dinlərindən biri hesab olunan Hinduizmin tarixi və inkişaf prossesi, müqəddəs mətnləri, əsas etiqad və ibadətləri, əxlaq normaları, düşüncə sisteminin mühüm kateqoriyaları haqqında maarifləndirildi. Proqramda Beynəlxalq Krişna Şüuru Cəmiyyətinin üzvü Ramil Əliyev mövzu ilə əlaqəli çıxış edərək, sualları cavablandırdı. Tələbələrin milli hind geyimlərində çıxış etməsi, hind musiqi alətlərinin müşayiəti ilə nəğmələr oxuması, təqdimatın ardından iştirakçılara milli hind mətbəxinin bəzi yemək və şirniyyat növlərinin təqdim olunması ilə proqram sözün əsl mənasında "Hind mədəniyyəti günü" əhval-ruhiyyəsində başa çatdı.

Proqramın son tədbiri dekabrın 24-də keçirilən "Dindən mədəniyyətə: Buddizm" adlı təqdimat oldu. Təqdimatda Buddizmin yaranması və yayılması prossesi, əsas etiqad və ibadət təsəvvürləri, başlıca əxlaqi-fəlsəfi görüşləri, Buddist düşüncə sisteminin özünəməxsus cəhətləri, adət-ənənələri, xüsusi gün və festivalları haqqında əyani vəsaitlərlə dəstəklənmiş nəzəri məlumat verildi. Təqdimatdan sonra iştirakçıların mövzu ilə əlaqəli sualları cavablandırıldı. Tədbirin sonunda E. Əzizova yaxın gələcəkdə departamentin təşkilatçılığı ilə digər din və cərəyanlarla əlaqəli yeni tədbirlərin keçirilməsinin planlaşdırıldığını bildirdi.